# DÜNYANIN AZƏRBAYCANLISI...

Bəli, müraciətim səhv deyil; - elə belə də soruşuram: dünyanın Azərbaycanlısı, sən hardasan?..

Çox demişik, dünya insan evidir; əgər dünya insan evidirsə, onda gərək dünyanın o başındakı insan bu başındakı insanın həyatından xəbərdar olsun. Əlbəttə, milli, irqi, dini fərqlər var. Ən müxtəlif siyasi təsüflər var... bütün bunlar insanları bir-birindən ayırmağa xidmət edir.

Amma birləşdirən tərəflər də var: ümumi insani dəyərlər var, bəşəri həqiqətlər var, böyük, mədəni sərvətlər var ki, o, hamıya məxsusdur... bütün bunları dünya birgə qorumalıdır. Yəni, dünyanın insanı qorumalıdır. Burada artıq milli, dini, irqi fərqlər heç bir əhəmiyyət kəsb eləmir. Yəqin dünyanın bu günki nizamında bəşəri həıqiqətlərin, bəşəri dəyərin dərc olunması baxımından, səbəbimdən ümumi dünya nizamı da qoruna bilir.

Bu dediklərimiz mahiyyətcə Azərbaycana da şamil oluna bilər, elə Aazərbaycan xalqını da ümumdünya mühitində dəyərlərimizi qorumaq naminə birliyə, birgə mübarizəyə çağırışda çox haqlıyıq.

Mən Cəbrayıl rayonunun Xələfli kəndində dünyaya gəlmişəm. Xələfli eli XX əsrdə qədərincə şaxələndi, böyüdü. Dağlıq Qarabağın Hadrud rayonuna daxil Günəşli, Quşçular kəndlərində eləcə də Cəbrayılın özündə bütöv bir kənd qədər Xələflilər yerləşmişdi. O başqa məsələdir ki, Xələflionin özü iki böyük kənddən ibarət idi: Xələfli (Dağ Xələfli), Diri dağı ətəklərindəki Aşağı Xələfli (Xələfli stansiyası, yaxud Bağ Xələfli də deyirdilər) kəndləri... eyni camaat, qohum nəsillər, Xudayarlılarla birgə həyat tərzi, kəndin mənəvi inkişafına təsir göstərən əsas amillər idi. Sözüm bunda deyil...

Azər və Anar Əhmədov qardaşları Yuxarı Xələflidə doğulmuşdular. Uşaqlıq çağları elə yuxarı Xələfli də keçmişdi. Sonra, kəndin adlı-sanlı müəllimi, ataları Sahib Əhmədovun elmə həvəsi ilə bağlı Bakıya köçdülər. Uşaqlıq xatirələri yarımçıq qaldı. Bakıda orta məktəb bitirdilər. ali təhsil istəyi onların yolunu böyük dünya arenasına tərəf apardı. İndi onlar Amerikanın (ABŞ) ayrı-ayrı məşhur universitetlərinin məşhur professorlarıdır. Dünyanın ən nəhəng riyaziyyat mərkəzlərində fikirləri, rəyləri nüfuzlu hökm kimi qəbul olunur. Əsas odur ki, onların hər birinin övladları da böyük elm yolundadır. Azərin qızı Selcan 14 yaşında universitetə qəbul olunub. Anarın qızı 13 yaşında artıq universitetdə oxuyur. Xələfli Əmrullanın və müəlliməm Telli Cəbrayılqızının oğlu Xaqani İmanov da Amerikada yaşayır, iş adamıdır. Mənim tanıdığım, tanımadığım digər Xələflilər də var ki, onlar da dünyanın çox uzaq tərəflərində öz bacarıqları, bilikləri, düşüncələri ilə faydalı işlərlə məşğuldurlar. Sağlam, mənəvi həyat sahibləridirlər.

Prezident Dünya Azərbaycanlılarına müraciət edir, onları Azərbaycan həqiqətləri uğrunda birgə mübarizəyə dəvət edir.

Bu gün işğalda olan Xələfli yurdlarının yetirmələri də, fəxr edirəm ki, ləyaqətli dünya azərbaycanlıları sırasındadır.

Çox istərdim ki, bir gün onlarla birgə doğma Xələfli yurdlarını - Xələf dağını, Gordu babanı, Diri dağlarını... doğma Cəbrayılımı, bütün Qarabağımı ziyarət edə bilim.

Mənim Azərbaycanlılarım, doğmalarım, hər birinizi dilimizin şirinliyi ilə salamlayıram. Yeni, daha uğurlu günlərdə görüşmək ümidi ilə yolunuzu gözləyirəm.

*Əli Rza* Xələfli

Kredo 2020.- 2 yanvar.- S.1.